84.2
D58

"MƏN VƏ MƏNİM DÜNYAM"

GÜVƏNCİN nağılları

# Azərbaycan bayrağı



842
D 58

1848 15/II-09
118 - 20/IV.09
1126 - 15/X-09

Lay



Göydən yüz alma
Uşaqlar tez bölüş
Hər almanın öz da
Hər nağılın öz adı




33978
842
D 58
Dilsiz
Azərbaycan baytarı
Bakı, 2008 2,90 AZN
33978

2013 ok

İki sevgilinin – Faiq və Güntəkinin nişanı idi. Təzə–tər gül dəstələrindən, paxlava, şəkərbura, baldua, nabat ilə dolu qırmızı lentlə bəzədilmiş xonçalardan masaların üstündə yer yox idi. Ağsaqqallar – qızla oğlanın babaları lap yuxarı başda əyləşmişdilər, nişan çayı içə-içə söhbət edirdilər. Ağzıdualı ağbirçəklər ortalıqda fırlana-fırlana nur topası kimi gözəl-göyçək uşaqların başına noğul səpirdilər. Çalğıçılar bilmirdilər ki, nə eləsinlər, oynamaq istəyənlərin biri «İnnabı» havasını istəyirdi, biri «Heyvagülü»nü, biri «Uzundərə»ni, biri «Qaytağı»nı... Axırda naəlac qalıb, «Yallı» çaldılar ki, hamı bir-birinə qoşulsun. Beləcə, ortalıq qızışdı, nə qızışdı!





F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. №33978





Dünya binə olandan, bəlkə də, belə nişan görməmişdi. Lap axırda ağsaqqallar qərara gəldilər ki, toyu da elə yaxınlarda – Novruz bayramından ya bir az əvvəl, ya da bir az sonra eləsinlər.

Beləcə, sevgililər başladılar səbirsizliklə toy gününü gözləməyə. Amma məsəl var, deyir, sən saydığını say, gör fələk nə sayır. Nişandan heç üç-beş gün keçməmişdi ki, cənnət Qarabağdan qara-qara xəbərlər gəlməyə başladı. Hər yerdə deyirdilər ki, ermənilər Böyük Ermənistan yaratmaq xülyasına düşüblər, odur ki, aranı qarışdırır, evləri yandırır, azərbaycanlıları yurd-yuvalarından didərgin salır, uşaqları və qocaları qətlə yetirirlər. Bunu eşidən cavanlar könüllü dəstələr düzəldir, cəbhəyə – Qarabağa yollanırdılar.

Günlərin bir günü Faiq Güntəkinin yanına gəlib dedi:

– Tay-tuşlarımın hamısı cəbhəyə gedib. Tək qalmışam. Qeyrət məni boğur, heç kəsin üzünə baxa bilmirəm, utanıram.





Güntəkin istədi desin bəs toyumuz? Amma dili gəlmədi. Bulud kimi tutuldu. Handan-hana özünə gəlib soruşdu:

– Nə vaxt getmək istəyirsən?

Faiq dedi:

– Sabah.

Səhəri gün sevgililər elə əhd-peyman bağladıqları yerdə – iydə ağacının altında görüşdülər. Güntəkin dedi:

– Sənə bir medalyon verəcəyəm, yadigar qalsın.

Faiq gülümsündü:

– Yəqin içindəki şəklindi, hə?

– Yox.

– Bəs nədi?

– Azərbaycan bayrağı...



Elə bil, Faiqə dünyanı bağışladılar, dedi:

– Darıxma! Çox çəkməz ki, düşmən məğlub olar, qayıdıb gələrəm, toyumuzu eləyərik.

Beləcə, sevgililər görüşüb ayrıldılar.



8

Faiq cəbhəyə çatan kimi əsgər paltarı geyindi. Əlinə silah aldı. Yeddi döyüş dostu ilə Murovun Yaltaxıl yüksəkliyini qorudu. Düşmən ha çalışdısa da, bir addım irəli gələ bilmədi.

Amma günlərin bir günü nə qədər gülləlləri vardısa qurtardı. Ermənilər gördülər ki, daha sakitlikdi – atəş səsləri gəlmir, yavaş-yavaş yüksəkliyə doğru irəlilədilər.

9



Faiqgil onların hənirini alanda, fikirləşdilər ki, əlbəyaxa döyüşsünlər.

Ermənilər yaxınlaşanda, Faiq boynundakı medalyonu çıxarıb iri bir daşın altında gizlətdi, istəmədi ki, düşmən əlinə keçsin.

Əlbəyaxa döyüş zamanı ermənilər yenə xeyli itki verdilər, amma buna baxmayaraq, axırda əli qurumuşlar yeddi igidin yeddisini də əsir aldılar – aparıb dalda bir yerdə zindana saldılar, döydülər, söydülər, ta o işgəncə qalmadı ki, verməsinlər, amma di gəl ki, inadlarını qıra bilmədilər.







Axırda dedilər:

– Ağzınızı bağlayıb gedirik. Bir də qırx gündən – Bakı və Gəncə alınandan sonra gələcəyik. O vaxtacan da kiminiz sağ qala, kiminiz ölə…

Ermənilər gedəndən sonra yeddi igiddən biri dedi:

– Bizi buradan çıxarsa, nağıllardakı ağ qoç çıxara bilər!

Faiq güldü:

– Ağ qoç – sən, mən… Lağım atmalıyıq.



Yeddisi də qollarını çırmalayıb başladılar zindanın divarını deşməyə. İncəfara, torpaq o qədər də bərk deyildi, ovulduqca ovulurdu.

Üç gündə xeyli lağım atdılar.





Faiq dedi:

– Amma biz burdan gecə çıxmalıyıq ki, görən olmasın.

İgidlərdən biri soruşdu:

– Bəs biz havanın qaranlıq olduğunu hardan biləcəyik?

Faiq dedi:

– Balaca – göz boyda bir deşik açarıq.

Elə belə də etdilər. Yeddinci gün hava qaralanda lağımdan çıxdılar.



Daldalana-daldalana gəlib Azərbaycanın sərhəddinə çatdılar. Ayaqları vətən torpağına dəyəndə, Faiq dedi:

– İndi hərə öz evinə getsin.

Soruşdular:

– Bəs sən?

Faiq dedi:

– Mən gedirəm medalyonu – Azərbaycan bayrağını gətirməyə.

Dostları etiraz etdilər:

– Sən nə danışırsan? Axı, o yüksəklik indi ermənilərinin əlindədir.

– Mən Güntəkinin yanına o medalyonsuz qayıda bilmərəm.





Dostları dedilər:

– Onda biz də səninlə gedirik.

Faiq bir qədər fikirləşəndən sonra:

– Yox – dedi. – Çox olsaq, duyuq düşərlər, ələ keçərik. Madam ki, məni tək qoymaq istəmirsiniz, onda, bir qıraqda gözləyərsiniz, gedib gələrəm.

Dostları razılaşdılar.



İNV. № 33978

Faiq əvvəlcədən bələd olduğu gizli yollarla Yaltaxıl yüksəkliyinə qalxdı, daşı qaldırdı, medalyonu götürdü.

Qayıdanda dostlarına dedi:

– Mən bir daşı qaldırıb medalyonu – Güntəkinin yadigarını götürdüm. Amma Vətənimizin işğal olunmuş torpaqları ağır erməni daşının altındadı. Biz gərək o daşı qaldırıb, torpaqlarımızı azad edək. Dədəm Qorqud demişkən, bir torpağı ki, daşlardan təmizləmədin, onu əkib-biçməyə dəyməz.



# «Azərbaycan bayrağı» nağılına aid suallar



El-oba kimin nişan məclisinə toplaşmışdı?




Faiq Güntəkinə hansı qərarını söylədi?




Güntəkin Faiqi yola salarkən ona nə bağışladı?




Faiq cəbhədə hansı yüksəkliyi qoruyurdu?




Necə oldu ki, ermənilər əsgərlərimizi əsir ala bildi?




Əsgərlərimizi harada saxlayırdılar?




Əsirlər zindandan qaçmaq üçün hansı yolu seçdilər?




Əsgərlərimiz zindandan çıxa bildilərmi?




Faiq nə üçün geriyə qayıtdı?




Faiq öz məqsədinə çatdımı?




**İdeya müəllifi:** Qoşqar Qarayev
**Layihənin rəhbəri:** Qaraqoyunlu

**Nəşriyyat direktoru:** Nərgiz Cabbarlı
**Yazar:** Dilsuz
**Məsləhətçi:** Əhməd İsayev
**Nəşriyyat redaktoru:** İlyas Tapdıq
**Texniki qrupun rəhbəri:** Denis İzuf
**Rəssamlar:** İlqar Mehdiyev, Laləzar Vəliyeva
**Dizayn:** Adıgözəl Abdullayev
**Operator:** Rəna Əzizova
**Çapa məsul:** Yasəf Həşimov

**Çapa imzalanmış 11.10.2008, formatı 60x84 1/8, fiziki ç.v. 2, təbaşirli kağız №1, arial qarnituru, sifariş GN №40, Sayı 500. Kitab *«Beşik nəşriyyatı»*nda nəşrə hazırlanmış və "İDEAL-PRİNT" mətbəəsində ofset üsulu ilə çap olunmuşdur.**

**Tel.: (+99412)4183872, 4183873, (+99440)2181787, (+99450)4989555**
**E-mail: beshik@beshik.az;**
**www.beshik.az**

**STANDARTLAŞDIRMA, METROLOGİYA VƏ PATENT ÜZRƏ DÖVLƏT AGENTLİYİ**
**şəhadətnamə № 2005 0563**
**iddia sənədi № 2005 0841,**
**ilkinlik tarixi: 15.07.2005.**



**Nağılın istifadəsi ilə bağlı bütün müstəsna hüquqlar *«Beşik nəşriyyatı»*na məxsusdur.**
**© *«Beşik nəşriyyatı»***



**Əmtəə nişanı:** "MƏN VƏ MƏNİM DÜNYAM"

ISBN 978-9952-446-56-2



ISBN 978-9952-446-56-2


"BEŞİK NƏŞRİYYATI"
B
BAKI